# İnkişafın formulu: düzgün strategiya, ardıcıl islahatlar və şəffaflıq

***Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində artıq tarixə qovuşan 2021-ci ildə ölkəmizin siyasi, hərbi, sosial-iqtisadi sahələrində mühüm uğurlar qazanıldığını, qarşıya qoyulan bütün məqsədlərə nail olunduğunu, respublikamızın uğurla inkişaf etdiyini və bütün bunların nəticəsində hazırda Azərbaycanın dünyada güclü dövlət kimi tanındığını diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, ötən il azad edilən torpaqlarda geniş quruculuq-bərpa işlərinə start verildiyini, düşmənin tamamilə dağıtdığı ərazilərin tarixdə görünməyən bir sürətlə canlandırıldığını və bunda əsas məqsədin keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarılmaq olduğunu xatırladıb.***

Ölkə rəhbəri daha sonra deyib: “Əlbəttə ki, bütün bu işlərə nail olmaq üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir. Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük. Əlbəttə, əgər iqtisadi inkişaf sürətlə getməsə, bu işləri bu sürətlə aparmaq mümkün olmayacaq...”.

**(ardı 5-ci səhifədə)**



# İnkişafın formulu: düzgün strategiya, ardıcıl islahatlar və şəffaflıq

(əvvəli 1-ci səhifədə)

Müraciətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın artıq postböhran dövrünə qədəm qoyduğu, iqtisadiyyatın hesabat ilinin 11 ayı ərzində 5,3 faiz, qeyri-neft iqtisadiyyatın 6,4 faiz artdığı, sənaye istehsalının 5,5 faiz, qeyri-neft sektorunda sənayenin 20,7 faiz, valyuta ehtiyatlarının isə 2,2 milyard dollar yüksəldiyi vurğulanıb. Həmçinin ölkənin ticarət əlaqələrində müsbət saldonun 9,4 milyard dollar olduğu, xarici dövlət borcunun ümumi daxili məhsulun cəmi 17 faizini təşkil etdiyi diqqətə çatdırılıb.

Ölkə rəhbərinin müraciətdə qeyd etdiyi kimi, hər bir ölkənin öyünə biləcəyi bu göstəricilər Azərbaycan üçün təbiidir. Bu, göstəricilər təsadüfün nəticəsi deyil. Belə dinamik yüksəliş uzunmüddətli, düzgün strategiyanın, iqtisadi sahədə aparılan islahatların, şəffaflıq, korrupsiya və rüşvətxorluqla ciddi mübarizənin gerçəkləşdirilməsi ilə əldə edilib.

Respublika Mərkəzi Bankının 2022-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatında da hesabat dövrünün uğurlu nəticəsi öz ifadəsini tapıb. Bəyanatda Prezident İlham Əliyevin rəhbərliyi ilə son bir il ərzində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatına pandemiyanın neqativ təsirlərinin minimallaşdırılması vurğulanıb: "Pandemiyanın yeni dalğasına baxmayaraq ilkin və səmərəli antiböhran tədbirləri, peyvəndlənmə prosesinin kütləviləşməsi, sosial təcrid məhdudiyyətlərinin mərhələli yumşaldılması, eləcə də iqtisadi subyektlərin şəraitə tədricən uyğunlaşması nəticəsində iqtisadi fəallıq bərpa edilib, nəzərdə tutlan proqnozdan daha yüksək iqtisadi artıma nail olunub".

Bəyanatda 2021-ci ildə Azərbaycanın xarici iqtisadi mövqeyinin ölkənin qeyri-neft məhsulları ixracı potensialının reallaşması və ixrac məhsullarının qiymətinin artması şəraitində formalaşdığı diqqətə çatdırılıb:

– ötən ilin yanvar-oktyabr aylarında ixrac qiymətləri indeksinin orta illik artımı 46,9 faiz təşkil edib;

– 2021-ci ilin 11 ayında xarici ticarət balansının profisiti ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,8 dəfə artaraq 9,4 milyard ABŞ dollarına çatıb. Qeyri-neft ixracı 44 faiz, qeyri-neft idxalı isə 9 faiz artıb. Doqquz ay ərzində tədiyə balansının cari əməliyyatlar hesabında 3,9 milyard ABŞ dolları və ya ÜDM-in 11 faizi səviyyəsində profisit yaranıb;

– profisitli tədiyə balansı şəraitində ölkənin strateji valyuta ehtiyatları 11 ayda 4,4 faiz (2,2 milyard ABŞ dolları) artaraq 53 milyard ABŞ dollarını, Mərkəzi Bankın ehtiyatları isə 10,2 faiz artaraq 7 milyard ABŞ dollarını üstələyib;

– hesabat dövrünün 11 ayında stimullaşdırıcı makroiqtisadi siyasətin davam etməsi və xarici tələbin genişlənməsi şəraitində sosial təcrid tədbirlərinin mərhələli yumşaldılması məcmu tələbin bərpasına şərait yaradıb. Bunun nəticəsində 11 ayda ötən ilin eyni dövrünə nəzərən pərakəndə ticarət dövriyyəsi 3 faiz, ödənişli xidmətlərin istehlakı 4,6 faiz artıb.

## Makroiqtisadi proqnozlar inkişafın daha da sürətlənəcəyindən xəbər verir

Mərkəzi Bankın bəyanatında Azərbaycan iqtisadiyyatının real sektorunda keçən il başlanan artımın 2022-ci ildə də davam edəcəyi proqnozlaşdırılır. Rəsmi proqnozlara görə, qarşıdakı təqvim ilində real iqtisadi artım tempinin 3,9 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 4,9 faiz olacağı gözlənilir. Sosial təcrid tədbirlərinin yumşaldılması, stimullaşdırıcı makroiqtisadi siyasətin davam etdirilməsi, özəl investisiyaların artımının tədricən sürətlənməsi, işğaldan azad olunan ərazilərdə bərpa işlərinin həyata keçirilməsi və makroiqtisadi sabitlik iqtisadi artım proqnozunun əsasını şərtləndirir. Bununla bərabər, 2022-ci ildə də dövlət tələbinin iqtisadi aktivliyin dəstəklənməsində mühüm rol oynayacağı, dövlət büdcəsi xərclərinin 2021-ci ilə nəzərən 4,7 faiz artacağı gözlənilir. Növbəti ildən büdcə qaydasının təkmilləşdirilməsi ilə qeyri-neft fiskal kəsirin azaldılması strategiyasının həyata keçirilməsi uzunmüddətli fiskal dayanıqlığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu il üçün səsləndirilən nikbin rəqəmləri Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçiriləcək məqsədyönlü iqtisadi siyasət və struktur-institusional islahatlar şərtləndirir. Eyni zamanda, burada ötən il ərzində iqtisadi aktivlik üzrə müsbət dinamikanın qorunub saxlanılması, profisitli tədiyə balansı strateji valyuta ehtiyatlarının artmasına şərait yaradılması amilləri də əsas rol oynayır.

Qeyd edək ki, Azərbaycan hökuməti iqtisadi və sosial inkişaf konsepsiyasının hazırlanması prosesində mütəmadi olaraq, proqnozlara mühüm önəm verir. Şübhəsiz ki, bu zaman ölkə iqtisadiyyatının mövcud inkişaf səviyyəsi, qlobal meyllər və çağırışlar nəzərə alınır.

Onu da xatırladaq ki, belə şəraitdə mövcud sahədə baş verən iqtisadi proseslər daim diqqət mərkəzində saxlanılmaqla, habelə respublikada görülən işlərə, möhkəm iqtisadi təmələ əsaslanılmaqla, 2022-ci ildə inkişafın davamlılığının müşahidə ediləcəyi vurğulanır.

Ümumiyyətlə, bu il ərzində nikbin proqnozların reallaşması makroiqtisadi siyasətin bütün istiqamətlərinin səmərəli koordinasiyasından və mümkün xarici şokun təsirlərinin qabaqcadan hazırlanmış tədbirlər planı ilə minimallaşdırılmasından asılı olacaq.

## Uğurları şərtləndirən amillər

Yuxarıda Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində dövlət başçımızın 2021-ci ildə əldə edilən göstəricilərin, başqa sözlə, dinamik yüksəlişin uzunmüddətli, düzgün strategiyanın, iqtisadi sahədə aparılan islahatların, şəffaflıq, korrupsiya və rüşvətxorluqla ciddi mübarizənin gerçəkləşdirilməsinin məntiqi nəticəsi olması ilə bağlı fikrini xatırlatdıq. Ümumiyyətlə, ölkə rəhbəri Azərbaycana rəhbərliyinin bütün mərhələlərində sosial-iqtisadi islahatların həyata keçirilməsinə mühüm önəm verib. Bu baxımdan pandemiya şəraitində reallaşdırılan tədbirlər də diqqət çəkib. Bunun nəticəsidir ki, hazırda respublikamızda sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradılıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhranı şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Azərbaycan əvvəlki illərdə olduğu kimi, 2021-ci ildə də dövlətimizin başçısının rəhbərliyi ilə dinamik inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib, respublikamız öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

## Şəffaflığın məntiqi nəticəsi

Ötən ildə də Azərbaycanda reallaşdırılan islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına yönələn tədbirlər bir sıra siyasi dəyişikliklər və struktur yenilənmələri ilə müşayiət olundu. Bütün bunların fonunda respublikada siyasi transformasiya mühiti də getdikcə şəffaflaşdı. Struktur və kadr islahatlarının davamlı xarakter alması özünü qabarıq büruzə verdi. Bütün bunlarla bərabər, beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirilən korrupsiya ilə mübarizə tədbirləri daha da gücləndirildi, bu istiqamətdə dövlət qurumlarının hər bir pilləsində şəffaflığın qorunması diqqət mərkəzində saxlanıldı. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi, habelə məşğulluq sahələrində şəffaflığın, həmçinin sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik, həmçinin korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi ilə bağlı vaxtaşırı ciddi, önəmli addımlar atıldı. Bütün bu tədbirlər, gerçəkləşdirilən islahatlar, yeniləşmələr ölkənin gələcək dayanıqlı inkişafının şərtləndirilməsi, ən başlıcası isə yoxsulluğun azaldılması məqsədi daşıdı.

Ölkəmizdə mövcud biznes mühitinin, siyasi və makroiqtisadi sabitliyin qorunub saxlanılması Azərbaycanın regiondakı xüsusi rolunu gücləndirdi. Prezident İlham Əliyevin "Sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 11 oktyabr 2021-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu" publik hüquqi şəxsin və "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin birləşmə formasında yenidən təşkili yolu ilə İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxs yaradılması siyasi və makroiqtisadi sabitliyin daha da möhkəmlənməsini şərtləndirdi. Yeni qurum iqtisadiyyatın qeyri-neft sektoruna investisiya qoyuluşunun təşviqi, sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmə sisteminin optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi, əlaqələndirmənin gücləndirilməsi, bu sahədə şəffaflığın və sahibkar məmnunluğunun daha da artırılmasını qarşıya mühüm vəzifə kimi qoydu.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*